*Onlar ad-san, şan-şöhrət üçün vuruşmurdular.*
*Onlar müqəddəs amal, müqəddəs vətən torpağının toxunulmazlığı uğrunda vuruşurdular.*
*Onlar vətən yolunda əziz canlarından keçəndən sonra "Milli Qəhrəman" adını aldılar.*


Tərtibçi: Məmmədova Tamella



Ünvan:

Az 1065, Yasamal rayonu,

Bakı şəhəri

N.Nərimanov küç., 203

E-mail: ryl.az@mail.ru

e-mail

URL: www.ryl.az

Əlaqə telefonları:

(+994 012) 538 02 47
538 54 57
538



Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi

Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanası


# Qəhrəmanlar unudulmur





## Azərbaycanın Milli Qəhrəmanı Fəxrəddin Nəcəfov-50

Buklet

Bakı-2017

## Həyatı və keçdiyi döyüş yolu haqqında

Fəxrəddin Vəliyəddin oğlu Nəcəfov 1967-ci il mart ayının 31-də Bakı şəhərində anadan olmuşdur. 1984-cü ildə Nəsimi rayonu 19 saylı orta məktəbi bitirmiş, Bakı Çini Qablar zavodunda əmək fəaliyyətinə başlamışdır. Bir il sonra hərbi xidmətə çağırılmış, Arxangelsk vilayətində xidmətini yerinə yetirdikdən sonra vətənə qayıtmışdır. DİN-in Yanğından Mühafizə İdarəsində işə qəbul olunaraq, 1988-ci ildə nazirliyin təqdimatı ilə Xarkov Yanğından Mühafizə Ali Hərbi məktəbinə göndərilmişdir. Təhsilini başa vuran F.Nəcəfov 1990-cı ildə 14 saylı Yanğından Mühafizə İdarəsində mühafizə rəisi vəzifəsinə təyin olunmuşdur. 1991-ci ildə vətənin müdafiəsi üçün könüllü olaraq Qarabağ cəbhəsinə yollanmışdır. İlk döyüşə Goranboy rayonundan başlayan Fəxrəddin 1992-ci ildə Ağdam cəbhəsində hərbi hissələrdən birinə bölük komandiri təyin edilmişdir. Həmin vaxtlarda Ağdamın Canyataq və Gülyataq kəndlərində ağır döyüşlər gedirdi. Onun bölüyünə düşmən ərazisinə düşən təyyarəçimizi xilas etmək tapşırığı verilmişdi. F.Nəcəfov təyyarəçini xilas edərkən Canyataq kəndində öz dəstəsi ilə mühasirəyə düşmüş, bir neçə gün qızğın döyüşlərdən sonra, nəhayət, bölük mühasirə həlqəsini yara bilmişdi. Həmin döyüş zamanı bir neçə yerindən yaralanan Fəxrəddin müalicə olunduqdan sonra yenidən cəbhəyə qayıtmış, 1992- ci il sentyabrın 4-də Ağdərənin Çaldıran kəndi istiqamətində gedən döyüşdə qəhrəmancasına həlak olmuşdur. Bakı şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 6 noyabr 1992-ci il tarixli 290 saylı Fərmanı ilə Nəcəfov Fəxrəddin Vəliyəddin oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür. Nəsimi rayonundakı 266 saylı orta məktəb qəhrəmanın adını daşıyır. Məktəbin həyatində büstü qoyulmuşdur.

Dağlıq Qarabağ müharibəsində göstərdiyi igidliyi və qorxmazlığı ilə milli qəhrəmanlıq tariximizə yeni səhifələr yazan qəhrəman Fəxrəddin Nəcəfovun bu il 50 yaşı tamam olur. 24 yaşında Milli Qəhrəmanlıq zirvəsinə ucalan qəhrəmanın həyat yolu, Vətən sevgisi hər birimizə örnəkdir. Necə ki, Azərbaycan xalqı var onun bu cür qəhrəman oğulları da unudulmayacaq, adları böyük ehtiram hissi ilə yad edilərək əbədi yaşayacaqdır.

## Ə d ə b i y y a t


1. Azərbaycan Respublikası Daxili işlər orqanlarının əməkdaşlarına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: Nəcəfov Fəxrəddin Vəliyəddin oğlu – sıravi – Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidliyə və şücaətə görə: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 19 oktyabr 1992-ci il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- № 21.- S.27.
2. Fəxrəddin Nəcəfov / Ənsər B. Necə də yaşamaq istəyirdim: Həyatı, təhsili və döyüş şücaəti haqqında // Ənsər B. Ağrıdağlı qəhrəmanlar.-B., 2004.- S. 51-53.
3. Əsgərov, Vüqar. Fəxrəddin Nəcəfov / V. Əsgərov. Azərbaycanın Milli Qəhrəmanları (Yenidən işlənmiş II nəşr).- Bakı: Dərələyəz-M, 2010.- S. 224.


### İnternetdə


http://www.anl.az/down/meqale/kaspi_az/2013/fevral/296576.htm.
http://penitensiar.justice.gov.az/
https://az.wikipedia.org/
veten-ugrunda.az/


